Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Elm və zəka tərənnümçüsü Jül Vern

**Jül Vernin 190 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Lalə Qəmbərova**
**Şəhla Əliyeva**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Elm və zəka tərənnümçüsü Jül Vern:** Jül Vernin 190 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası ; tərt.ed. L.Qəmbərova; ixt.red. və burax.məsul Ş. Qəmbərova ; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018. - 22 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Böyük roman ustası Jül Vernin dünya ədəbiyyatı tarixində müstəsna yeri var. Fransız ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan yazıçı XIX əsrin ikinci yarısında yaşamış dünya ədəbiyyatı xəzinəsinə bir-birindən qiymətli romanlar bəxş etmişdir. Öz dövründə onun qədər böyük təsir gücünə malik ikinci bir yazıçı tapmaq çətindir. Yüzə qədər roman müəllifi olan Jül Vernin əsərlərində dünyanın bütün qitələrindən bəhs edilmişdir.

Dünyada heç bir yazıçı, yeniyetmə və gənclik yaşlarında olan insana, fransız yazıçısı Jül Vern qədər əziz ola bilməz. Uşaqlar onun "80 min kilometr su altı ilə", "Kapitan Qrantın uşaqları" romanlarını çox böyük maraqla oxuyurlar. Çox nəhəng bir yaradıcılıq irsi qoyub gedən Jül Vern dünya ədəbiyyatında fantastika və macəra janrlarının banisidir. Doğrudur, ondan əvvəl də bu janrlarda əsərlər mövcud idi. Lakin onların heç biri təsir gücü və populyarlığı ilə Jül Vernlə müqayisə oluna bilməz. Bu qeyri-adi insan öz əsərlərində o qədər elmi-texniki yeniliklər kəşf etmişdi ki, onların çoxu yalnız bir çox illərdən sonra həqiqətən də kəşf olundu. Simsiz teleqraf, elektrik hərəkətediciləri, hətta metropoliten də əslində bu böyük yazıçının təxəyyülünün məhsuludur.

Onun romanlarında uşaq qəlbini titrədən qorxulu məqamlar, həyəcanlı hadisələr bol-boldur. Ancaq son nəticədə həmişə ədalət, xeyirxahlıq və alicənablıq qalib gəlmişdir. Doğrudur, bu gün televiziya, videofilmlər və kompüter dünyası Jül Vern kimi böyük dühaların oxucularını xeyli azaldıb. Ancaq hələ də soyuq otaqlarda "yorğanı boğazına kimi" çəkib Jül Vernin "Yerdən Aya", "Dünya hökmranları", "Dünya ətrafında 80 gün" və başqa saysız romanlarını nəfəs dərmədən vərəqləyə-vərəqləyə oxuyan yeniyetmələr var və həmişə də olacaq.

## Həyat və yaradıcılığı

Böyük fransız yazıçısı Jül Vern 1828-ci il fevralın 8-də Fransanın qərbində, Nant şəhərində anadan olmuşdur. Elmi-fantastik roman janrının yaradıcılarından biri olan Jül Vern ədəbi fəaliyyətə 1849-cu ildən fantastik roman və hekayələrlə deyil, şeirlə başlamışdır. Onun 1863-cü ildə 35 yaşında yazdığı "Beş həftə hava şarında" adlı romanı öz müəllifinə böyük şöhrət qazandırmaqla yanaşı, yazıçının adını Fransa sərhədlərindən çox-çox uzaqlarda məşhur etmişdir. Çapdan çıxandan dərhal sonra bu əsər bir çox dünya dillərinə tərcümə edilmişdir.

Jül Vern çoxsaylı elmi-fantastik, ictimai-satirik, macəra, roman və povestin, "Kapitan Qrantın uşaqları" (1867-1868), "80000 kilometr su altı ilə" (1869-70), "80 günlük dünya səyahəti" (1872), "Gizli ada" (1875), "On beş yaşlı kapitan" (1878), "Üzən ada" (1895) və başqa əsərlərin müəllifidir. Jül Vernin romanlarında dünyanın bütün qitələrindən, oradakı müxtəlif ölkə və xalqlardan, böyüklü-kiçikli şəhərlərdən bəhs edilmişdir.

Fransız yazıçısının ən çox maraqlandığı və ən çox oxuduğu əsərlər – dünya səyyahlarının əsərləri (səyahətnamələri) idi. Bax elə buna görə də Jül Vern heç vaxt görmədiyi, səyahət etmədiyi ölkələri, xalqları, şəhər və dənizləri elə dəqiq, elə inandırıcı və elə təfsilatlı təsvir etmişdir ki, oxucu inana bilməmişdir ki, o, təsvir etdiyi yerlərdə olmayıb, o yerləri görməyib. Məsələn, Jül Vern özünün "Klodius Bombarnak" (1892) əsərində Azərbaycanı, Gəncə, Bakı, Xəzər dənizini və respublikamızın başqa yerlərinin elə gözəl və dəqiq təsvirini vermiş ki, adam həmin təsvirlərin qiyabi olmasına, Fransadan kənara çıxmadan təsvir edilməsinə heç cür inana bilməmişdir. Jül Vern yaradıcılığının ən önəmli cəhəti Yer və Kainatın sirlərini açmağa səy göstərən elmi romantikanın son dərəcə güclü olması

amilidir. Onun qəhrəmanları təmənnasız alimlər, milli zülm və müstəmləkəçiliyə qarşı etiraz edən humanistlərdir. Jül Vern cəmiyyətin aşağı təbəqəsinin maraqlarına, arzu və istəklərinə üstünlük vermiş, yeri gələndə zəhmətkeş insanların müdafiəsinə də qalxmışdı. O, elmi nailiyyətlərdən varlıların xeyrinə istifadə olunmasının əleyhinə çıxmış və əsərlərində bu ideyanı təlqin etməyə çalışmışdı.

Onun yaradıcılığı bir çox görkəmli alim, ixtiraçı və səyyahın (D.Mendeleyev, K.Siolkovski, F.Nansen) elmi axtarışlarına güclü təsir göstərmişdir. Yazıçının əsərləri zaman-zaman dünya dillərinə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmiş və indi də edilməkdədir. O, yüzə qədər romanın müəllifidir.

Müəllifin “80 günlük dünya səyahəti” adlı macəra romanı ən çox tanınan və oxunan əsərlərindəndir. Romanda cərəyan edən hadisələr və əsərin əsas qayəsi haqda Jül Vern romanın çap olunmasından xeyli əvvəl “Magasin pittoresque”də (Mənzərə jurnalı) hələ 1870-ci ildə məqalə dərc etmişdir. Məqalədə fransız yazıçısı sübut etmiş ki, 80 gün ərzində dünyanı səyahət edib qurtarmaq olar. Məqalədəki hesablamalar ingilis mətbuatında da (“Morning Chronicli”) dərc edilmişdir. Jurnalın əməkdaşı cavan və güclü ingilis centlmeni 80 gündə dünyanı səyahət etməyin mümkünlüyü haqda yoldaşları ilə mübahisə etmiş, mərc gəlmiş və səyahəti vaxtında başa vurmaqla mərci udmuşdur. Səyahətdə gənc ingilis bütün növ nəqliyyat vasitələrindən, qayıq, yelkənli qayıq, xizək, gəmi, fil, at, araba və başqalarından istifadə etməklə səyahəti vaxtında başa vurmuşdur.

Jül Vernin qeyri-adi səyahətlər seriyasından olan “Yerdən aya qədər” romanı isə 1865-ci ildə yazılmışdır. Əsərdə yazıçı isə yumorla bəşəriyyətin ən qədim arzu və istəklərindən olan elmi-texniki inkişaf və onun tətbiqi, qısa müddətdə böyük-böyük məsafələrin qət edilməsi, Yer planetindən başqa planetlərə – Aya, Marsa, Yupiterə və Veneraya səyahətin

mümkünlüyünün təmin edilməsi kimi problemlərə toxunmuşdur. Maraqlıdır ki, Jül Vernin o dövrdə özünün sevimli fantastik janrında peyğəmbərcəsinə irəli sürdüyü, təsvir etdiyi bəzi ideyalar sonralar gerçəkləşmiş və həyata keçmişdir: aya səyahət baş tutmuş, səsdən iti gedən təyyarələr ixtira olunmuş, şar balonlarla uzun məsafələri qət etmək mümkün olmuş, qitələrarası ballistik raketlər hazırlanmışdır və s.

Jül Vern "Kapitan Qrantın uşaqları" romanını 1867-68-ci illərdə yazmışdı. Bu romanda, bütövlükdə mütərəqqi yazıçının yaradıcılığında fransızların fədakarlığı, qəhrəmanlığı, humanistliyi mövzusu aparıcı yer tutmuşdur. Bir fransız ailəsinin başçısı kapitan Qrantı tapıb onun həyatını xilas etmək, onu ailəsinə qaytarmaq üçün "Dunkan" gəmi ilə heyəti haralara getməmiş, Yer kürəsinin hansı regionunda axtarışlar aparmamışdır! Maraqlıdır ki, gəmidəki fədakar insanlar – Eduard Qlenarvan, Mak-Nabs, kapitan Con-Manqls, Paqanel, kapitan Qrantın dözümlü və cəsarətli uşaqları və başqaları böyük ruh yüksəkliyi və inamla kapitan Qrantı axtarmış və onun tapılacağına ümid bəsləmişdilər.

"Kapitan Qrantın uşaqları" romanında paralel olaraq Cənubi Amerika ölkələrinin, Yeni Zelandiya və dünyanın başqa regionlarının gözəl və təkrarsız təbiətindən, insanlarından, müxtəlif sosial təbəqələrdən , taleləri üzlərinə gülməyən yoxsul, bədbəxt və nakam insanlardan söhbət açılmışdır. Bu, paralel, gərgin atmosfer yaratmaqdan ötrü yazıçı tərəfindən tapılmış uğurlu bir üsuldur. "Kapitan Qrantın uşaqları" romanını Azərbaycan dilinə Cabbar Məcnunbəyov tərcümə etmişdir.

Jül Vern dünya gənclərinin sevimli yazıçısı olub və indi də sevimli olaraq qalmaqdadır. Fransız, eləcə də dünya yazıçıları arasında Jül Vern ən çox tərcümə olunan sənətkardır. Öz dövründə onun qədər böyük təsir gücünə malik olan ikinci bir yazıçı tapmaq qeyri-mümkündür.

XIX əsrin axırları-XX əsrin əvvəllərində yazıb-yaratmış fransız yazıçısı Reyman Rusel, Jül Vern yaradıcılığına, yazıçının şəxsiyyətinə pərəstiş edən, onun əsərlərindən gen-bol bəhrələnən yazıçılardan biridir. Jül Vernin özü də ədəbi fəaliyyətində başqa yazıçılardan bəhrələnməmiş deyildir. Belə ki, o lap gənc yaşlarından Aleksandr Düma (ata) ilə dostlaşmış, onun fantastik və macəra ruhlu əsərlərinin təsir dairəsindən axıra qədər çıxa bilməmişdir.

Bu il görkəmli yazıçının anadan olmasının 190 ili tamam olur. Bu münasibətlə respublikanın mədəniyyət müəssisələrində, həmçinin kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da yazıçının yubileyi ilə bağlı tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Yazıçının yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə onun kitablarından ibarət sərgi təşkil olunur. Sərgi aşağıdakı başlıqlardan biri ilə qurula bilər: **"Jül Vern – 190", "Hər dövrdə sevilərək oxunan yazıçı", "XIX əsrin görkəmli fransız yazıçısı", "Dünya ədəbiyyatında fantastika və macəra janrının banilərindən biri", "Əsərləri ən çox xarici dillərə tərcümə olunan fransız yazıçısı", "Reallıq və fantastikanın vəhdətini yaradan yazar", "Elmi-fantastika janrının atası", "Yeni tipli roman müəllifinin yaradıcısı"** və s. Bundan başqa sərgidə yazıçının müxtəlif adda olan kitabları, dövri mətbuatda çap olunan məqalələri verilir.

# Kitab sərgisi


















## Jül Vern haqqında bilmədiyimiz 11 fakt

**1.** Jül Vern 19 yaşında ailəsinin istəyi ilə hüquq fakültəsini oxumuş, atası kimi vəkil olmaq üçün Parisə getmişdir. Lakin Jül Vern vaxtının çoxunu öz istəklərinə xərcləmişdir. Atası oğlunun bohem həyat tərzini yaşadığını, hekayə yazdığını öyrənəndə bir də ona pul göndərməmişdir. Jül Vern vəziyyətin belə olduğunu görüb dolanışıq pulunu çıxarmaq üçün birja işinə girməyə məcbur olmuşdur.

**2.** Jül Vern Parisdə Viktor Hüqo və Aleksandr Düma ilə vaxt keçirməyə fürsət tapmışdır. İki usta yazıçıdan yazarlıq haqqında tövsiyələr almışdır. Görkəmli fransız yazıçısının Pier Hitzel ilə tanışlığı isə həyatının ən önəmli anlarından biri olmuşdur.

**3.** Jül Vern 28 yaşında iki qız övladı olan Honorine de Viane ilə evlənmişdir. Dörd il sonra Maykl adında uşaqları olmuşdur.

**4.** Jül Vernin uşaqlar üçün kitablar yazdığını deyirlər. Ancaq yazıçının 60-dan çox kitabın yalnız ikisi sırf uşaqlar üçün yazılmışdır.

**5.** Jül Vern haqqında daha bir yanlış düşüncə: evdə oturub macəra romanlarını yazmışdır. Halbuki Jül Vern Avropa, Skandinaviya, ingilis adaları və Aralıq dənizi bölgəsini gəzməklə qalmamış, eyni zamanda “Su altında 20 min lyö” romanını öz gəmisində yazmışdır.

**6.** Jül Vern elmi-fantastik yazıçı hesab olunur. Ancaq 54 romanın içində bir neçəsi bu janra aid ola bilər. Həm də yazdığı romanlarda insanları heyrətə gətirən bir elm sahəsi vardı:

Coğrafiya. Jül Vern romanlarının hər birində oxucularını dünyanın başqa bir guşəsinə aparmağı bacaran böyük yazıçı idi.

**7.** Jül Vernin böyük dənizlər və kosmik gəmilər haqqında yazmaqda məqsədi oxucuları heç bir makina olmadan gedə bilməyəcəkləri yerlərə səyahət etdirmək idi. O, dənizin altındakı həyatı onlara göstərmək istəyirdi. Onun "Aya səyahət" əsəri, oxucuları peyklərə, "Dünyanın mərkəzinə səyahət" isə Skandinaviyaya, İslandiyaya aparmışdır.

**8.** Jül Vernin "Səksən gün Yer ətrafında" romanı olmuş bir əhvalata söykənmişdir. 1870-ci ildə nüfuzlu bir iş adamı Corc Fransis Train ABŞ prezidentliyinə namizəd olduqdan sonra dünyanı 80 gündə dolaşa biləcəyini açıqlamışdır. Lakin 20 il sonra dünyanı 67 gündə dolaşmağı bacarmışdır.

**9.** YUNESKO-ya görə Jül Vern dünyada ən çox dilə tərcümə olunan yazıçıdır. Onun əsərləri 148 dilə tərcümə olunmuşdur.

**10.** Jül Vernin romanları film dünyasına da ilham vermişdir. "Aya Səyahət" romanının əsasında eyniadlı film çəkilmişdir.

**11.** Jül Vern 1886-cı ildə əmisi oğlu tərəfindən güllə ilə vurulmuşdur. Qaston adlı bu adamın atdığı iki güllədən biri ayağına dəymişdir. Bu yaradan sonra yeriməyə çətinlik çəkmiş, ömrünün sonuna qədər axsamışdır. Qastonu isə ruhi xəstəxanaya yerləşdirmişlər.

Kitabxanada Jül Vernin yaradıcılığını məktəblilərə tanıtmaq, qələmə aldığı əsərlərlə yaxından tanış etmək üçün böyük oxu zalında yazıçının məşhur əsəri olan **"Kapitan Qrantın**

**uşaqları" adlı səhnəcik** təşkil olunur, sonra məktəblilər "Kapitan Qrantın uşaqları" filminə tamaşa edirlər.

Jül Vernin anadan olmasının 190 illiyi münasibətilə kitabxanalarda **"Jül Vern və onun qəhrəmanları"** mövzusunda **dəyirmi masa** da keçirtmək olar. Belə tədbirlərə filologiya fakültəsində oxuyan tələbələri, ədəbiyyat müəllimlərini dəvət etmək çox faydalı olardı. Tədbirin keçiriləcəyi zalda yazıçının böyük portretinin asılması, kitabların sərgisinin təşkili vacibdir. Dəyirmi masanı kitabxanın müdiriyyəti və ya təcrübəli kitabxanaçılardan biri açaraq Jül Vernin həyat və yaradıcılığı haqqında qısa məlumat verir. Daha sonra tələbələr Jül Vernin yaradıcılığı ətrafında diskussiya, fikir mübadiləsi aparırlar.

**I oxucu:** Dünya ədəbiyyatı tarixində elmi-fantastik romanın yaradıcısı və ədəbi ictimaiyyət arasında "yeni tipli roman" müəllifi sayılan J.Vern bu janrın ən böyük ustası hesab olunur. Elmi-fantastik ədəbi janrı XIX əsrin ikinci yarısında yaranmasına baxmayaraq, onun ilkin rüşeymləri hələ lap qədim dövrlərdə fantastika şəklində dünya ədəbiyyatında mövcud olmuşdur. Qədim Şərq, Antik yunan və Roma, Orta Əsrlər və İntibah dövrü, eləcə də yeni dövr Qərb ədəbiyyatında fantastika janrında xeyli qiymətli əsər yazılmışdır ki, bu da gələcəkdə bədii ədəbiyyatda elmi-fantastik janrın yaranması üçün əsaslı zəmin yaratmışdır. Fantastika formasında yazılmış əsərlər bir qayda olaraq, bədii təxəyyül, fantaziya, nağıl-dastan-əfsanə ənənələrinə söykənmiş və bədii ifadə tərzinin bir formasını təşkil etmişdir. Bununla belə, bu tipli əsərlər dünya ədəbiyyatının formalaşmasında və bədii təfəkkürün inkişafında əhəmiyyətli rol oynamışdır.

Elmi-fantastik ədəbi janrının yaranması, ilk növbədə professional elm sahələrinin inkişafı ilə əlaqədar olmuşdur. Avropada elmi-texniki tərəqqinin səviyyəsi yüksəldikcə, elmi kəşflərin də sayı artmağa başlamışdır. Məşhur Haus və

Faradeyin müasiri olan Jül Vern məhz elə bu dövrdə ilk elmi-fantastik romanlarını yazmağa başlamışdır.
**II oxucu:** Jül Vern Avropada sənaye çevrilişinin hökm sürdüyü keçid dövründə yaşamışdır. O, ahıl yaşlarında olanda avtomobildə gəzmiş, kinoya baxmış, mətbuatda aeroplanların (ilk təyyarələrin) uçuşları haqqında məlumatlar oxumuşdur. Artıq bəşəriyyətin, elmin möcüzələrinə və böyük nailiyyətlərinə inanmağa başlamışdır. Əmək fəaliyyətinə hələ gənc yaşlarından başlayan J.Vern bir müddət (1851-1856) teatr direktorunun katibi, sonra isə maliyyə agenti (1856-1864) vəzifələrində çalışmışdır.

Görkəmli yazıçı 60-dan artıq elmi-fantastik və sosial-satirik romanlar, povest və hekayələr, eləcə də coğrafiyaya və coğrafi tədqiqatlar tarixinə həsr edilmiş elmi əsərlər yazmışdır. Onun roman və povestləri elmi məlumatlarla zəngin olsa da, bu əsərlər macəra üslubunda yazılmış, daha çox o dövrün romantik üslubuna uyğun gərgin dramatik süjetə, yaddaqalan obrazlar sisteminə malik olmuş və qeyri-adi şəraitlərdə baş verən hadisələrin təsvirinə həsr edilmişdir ki, bu da həmin əsərlərin maraqla oxumasına səbəb olmuşdur. J.Vern bir-birinin ardınca "Yerin mərkəzinə səyahət" "Yerdən Aya qədər", "Ayın ətrafında", "Kapitan Hatterasın səyahətləri və macəraları", "Kapitan Qrantın uşaqları", "İyirmi min lyö su altında", "Səksən gün ərzində dünya ətrafında", "Sehrli ada", "On beş yaşlı kapitan", "Fateh-Robur", "Üzən ada", "Dünyanın hakimi", "Barsak ekspedisiyasının qeyri-adi macəraları" və s. kimi romanlarını yazıb çap etdirmişdir.

Yazıçının bütün bu əsərləri bizim yaşadığımız planetin və kainatın sirlərindən xəbər verən müxtəlif elmlərin cazibədar romantikasına həsr edilmişdir. Buraya həm böyük elmi kəşflər etməyə can atan görkəmli alimlər, həm cəmiyyətdən təcrid olunmuş rəhmsiz quldurlar, həm iddiasız sadə adamlar, safqəlbli

gənclər, dövrünün ədalətsizliklərindən küsən insanlar, haqsızlıqlara, istismara qarşı vuruşan vətənpərvərlər daxil idi. Jül Vern özü demokrat və respublikaçı olmuş, utopik sosialistlərə rəğbət bəsləmiş, 1871-ci il Paris Kommunasında fəal iştirak etmişdir. Sonralar o, elmin müəyyən adamların, varlı təbəqələrin mənafeyinə xidmət etməsinin əleyhinə çıxmış, bütün yaradıcılığında səfillərin, əzilənlərin, imkansız kütlənin tərəfini saxlamışdır.

**III oxucu:** Jül Vernin məşhur əsərlərindən biri də "İyirmi min lyö su altında" romanıdır. Bu əsərin qəhrəmanı kapitan Nemo (latın dilində "Heç kəs" deməkdir) da digər romanların qəhrəmanları kimi, dərin biliklərə malik, möhkəm iradəli, azadlıqsevər, insanpərvər bir adamdır. Bütün roman boyu bu sirli qəhrəmanın kimliyini müəyyən etmək mümkün olmamışdır. Ancaq yazıçının başqa bir əsərində – yuxarıda haqqında bəhs edilən "Sirli ada" romanının son fəsillərində onun şəxsiyyətinə aydınlıq gətirilmişdir. Məlum olmuş ki, bu mənşəcə hindistanlı olan şahzadə Dakkar (onun əsil adı belədir) – Avropada hərtərəfli təhsil almış çox istedadlı, hətta dahi adamdır. Təhsilini başa vurub vətənə qayıdan şahzadə burada ingilis ağalığına qarşı üsyan qaldırmış və həmin üsyana başçılıq etmişdir. Üsyançılar məğlubiyyətə uğramış, şahzadə Dakkarın silahdaşları və bütün ailə üzvləri həlak olmuşdur. Dünyada baş verən şərdən yaxa qurtarmaq məqsədilə, azadlığın və müstəqilliyin mənasını dərk edə bilməyən insanlara dərin nifrət hissi bəsləyən Dakkar nəhəng gəmi hazırlamış və okeanda, su altında özünə sığınacaq tapmışdır. Dünya okeanının və sualtı aləmin sirlərinin, fauna və florasının tədqiqi ilə məşğul olan bu dahi alim elm sahəsində böyük nailiyyətlər əldə etmiş, hətta dövrünün elmi nailiyyətlərini xeyli qabaqlamışdır. İşıqlı dünyanın qayda-qanunlarına etiraz edən, ümumiyyətlə, bəşəriyyətdən üz çevirən bu böyük alim insanlar arasına

qayıtmaqdan boyun qaçırmışdır. Azadlıq aşiqi olan bu insan dara düşən, müstəqillik uğrunda mübarizə aparan adamları darda qoymamış, imkan düşən kimi onlara yardım əlini uzatmışdır.

**IV oxucu:** "İyirmi min lyö su altında" romanında kapitan Nemonun ən yaxşı insani keyfiyyətləri göstərilmişdir. Romanın əvvəlində aydın olur ki, dünya okeanlarında indiyə qədər elmə naməlum nəhəng bir varlıq üzmüş, bu məxluq ona hücum edən balina ovçularını, hətta nəhəng gəmiləri belə məhv etmiş, yavaş-yavaş onun adı ətrafında əfsanələr yaranmağa başlamış, ən cəsarətli dənizçiləri belə vahiməyə salmışdır. Onu görənlər "müəmmalı canlını" çox nəhəg yırtıcı balinaya, kitə və bunlara bənzər hansısa varlığa oxşatmışlar. Nəhayət, cəsarətli adamlar tapılmış və onlar "Avraam Linkoln" gəmisi ilə həmin sirli məxluqun axtarışına çıxmışlar. Təcrübəli dənizçilərin daxil olduğu gəmi heyətinə görkəmli təbiətşünas alim Pyer Aronaks, onun nökəri Konsel və balina ovçusu Ned Lend də qoşulmuşdur. "Nautilus" la qarşılaşan "Avraam Linkoln" gəmisi məğlubiyyətə uğramış, adları çəkilən qəhrəmanlardan başqa bütün gəmi heyəti həlak olmuşdur. Təsadüf nəticəsində sağ qalan bu qəhrəmanları "Nautilus" un kapitanı Nemo xilas etmiş və onlar qeyri-adi gəmidə əsir kimi yaşamaq məcburiyətində qalmışlar. Dəniz və okeanlarda yaşayan canlılar haqqında ciddi tədqiqatlar aparan Aronaks heç də özünü burada əsir kimi hesab etməmişdir. "Naitilus" da səyahət edən alimə öz tədqiqatlarını davam etdirmək üçün göydəndüşmə imkanlar yaranmış və eyni zamanda, təsadüfən düşdüyü gəminin kapitanının da böyük elmi tədqiqatlar aparması onun ürəyindən olmuşdur.

**V oxucu**: Romandakı hadisələr Pyer Aronaksın dilindən danışılmışdır. Kapitan Nemonun müəmmalı həyatı onu narahat etsə də, elmi qabiliyyəti və yüksək insani keyfiyyətləri Aronaksda ona qarşı rəğbət hissi yaratmışdır. İnsanlardan küsməsinə, bəşəriyyətə qarşı barışmaz mövqedə dayanmasına

baxmayaraq, kapitan Nemo alicənab adamdır, böyük elmi kəşflər edib, ən görkəmli alimlərin belə, nail ola bilmədiyi elmi zirvələri fəth etmişdir. Onun yaratdığı gəmi qeyri-adi qüvvəyə və imkanlara malikdir. Həmin gəmi ilə dünya ətrafında səyahət etmək, onun köməyi ilə dəniz və okeanlarda yaşayan bütün canlı aləmin sirli həyatını öyrənmək mümkün olmuşdur. Bu aləm isə həddən artıq əsrarəngiz və zəngindir. Kapitan Nemo gəminin sayəsində su altında qalan, ancaq müəyyən kitablarda haqqında məlumat verilən əfsanəvi Atlantidanı aşkar etmişdir. Geniş müşahidə qabiliyyətinə və obyektivlik hissinə malik olan Aronaks kapitan Nemonun bütün xidmətlərini görmüş və düzgün qiymətləndirmişdir.

Kapitan Nemo həm də böyük var-dövlət sahibidir. O, müxtəlif dövrlərdə qəzaya uğramış gəmilərdəki xəzinələri ələ keçirsə də, onları öz elmi ixtiraları üçün və ehtiyacı olan insanlara xərcləmişdir.

Jül Vernin yaşadığı dövrdən xeyli zaman ötsə də, onun "İyirmi min lyö su altında" romanında təsvir etdiyi bizim yaşadığımız planetin sualtı dünyası, bir elə də dəyişməmişdir. Yerüstü dünyadan fərqli olaraq, sualtı aləm daha gec dəyişir. Bu gün elm və texnika kifayət qədər inkişaf etmiş, Jül Vernin elmi-fantastik formada, fərziyyələr əsasında Aya səyahət etmək fikri artıq çoxdan reallaşıb və mövcud elmi-texniki tərəqqi bir çox mənada Jül Vernin fantastikasını üstələmişdir.

Onu da qeyd etmək lazımdır ki, Jül Vernin elmi-fantastik romanları çox gözəl bədii əsərlər olmaqla yanaşı, özlərində hədsiz qiymətli elmi fikirlər, fərziyyələr, hətta elmi kəşf səciyyəli məlumatlarla zəngindir. Dünyanın bir çox görkəmli alimləri gənclik və yeniyetmə yaşlarında həmin romanları bədii əsər kimi ləzzətlə oxumasalar da, sonralar o əsərlərdə ifadə olunan çoxsaylı ideyalar onların böyük elmi kəşflər etməsinə səbəb olmuşdur.

Kitabxanada keçirilən maraqlı tədbirlərdən biri də **"yazıçının əsərinin təhlili"**dir. Jül Vernin **"Arxipelaq alovlanır"** romanını təhlil etmək üçün iştirakçılar səhnəyə dəvət olunur.

**I iştirakçı:** Elmi-fantastik romanları ilə bütün dünyada məşhur olan fransız yazıçısı Jül Vernin "Arxipelaq alovlanır" romanı – XIX əsrin 20-ci illərində yunan vətənpərvərlərinin azadlıq uğrundakı mübarizələrinə, onların Yunanıstanın istiqlaliyyəti naminə göstərdikləri qəhrəmanlığa həsr olunmuşdur. Bu əsər Jül Vernin ən yaxşı tarixi romanlarından biri kimi 1884-cü ildə Parisdə çap olunmuşdur.

Məlumdur ki, Jül Vern həmişə öz elmi-fantastik və tarixi romanlarında təsvir etdiyi ölkələrin, xalqların həyatı haqqında maraqlı məlumat verməyi də unutmur. Asılı və ya müstəmləkə vəziyyətində olan ölkələr, öz azadlığı və istiqlaliyyəti uğrunda işğalçılara qarşı mübarizə aparan xalqlar haqqında danışanda Jül Vern milli-azadlıq hərəkatına rəğbətini, zülmkarlara qarşı nifrətini gizlətməmiş, bütün varlığı ilə azadlıq carçısı olan, xalq işi uğrunda mətanətlə vuruşub qəhrəmanlıqlar göstərən surətləri xüsusi məharətlə təsvir etmişdir. "Arxipelaq alovlanır" əsərində də müəllifin yunan xalqının tarixi qəhrəmanlıq mübarizəsinə demokratik mövqedən yanaşdığı və Osmanlı imperiyasının Balkanlardakı siyasəti əleyhinə olduğu aydın hiss olunur.

**II iştirakçı:** Romanda təsvir olunan hadisələr Yunanıstandakı azadlıq müharibələrinin, demək olar ki, son mərhələsi ilə bağlıdır və təxminən birillik dövrü əhatə etmişdir (1827-ci ilin oktyabrından 1828-ci ilin sentyabrına qədər). Jül Vern bu dövrü məhz ona görə seçmişdir ki, Yunanıstanın istiqlaliyyəti uğrundakı vuruşmaların ən maraqlı, ən dramatik lövhələrini qələmə alsın və hadisələrin inkişafının yüksək zirvəsini göstərə bilsin. Müəllif bu məqsədinə nail olmuşdur. Onun yaratdığı əsas və ikinci dərəcəli (həm tarixi şəxsiyyətlər, həm də müəllifin uydurduğu) surətlər arasındakı mürəkkəb və gərgin konflikt

tarixi hadisələrin əsas istiqamətinə uyğun olmaqla bərabər, obrazların xarakterinin açılmasına imkan vermişdir.

Kitabxanalarda Jül Vernin 190 illik yubileyi ilə əlaqədar olaraq, keçirilməli maraqlı tədbirlərdən biri də **"ədəbi-bədii gecə"**dir. **"Hər dövrdə sevilərək oxunan yazıçı"** adlı ədəbi-bədii gecəyə fransız yazıçısının tədqiqatçılarını, ədəbiyyatşünasları, maarifçiləri, jurnalistləri, oxucuları, məktəbliləri dəvət etmək olar. Qonaqlar ədibin şəkilləri, müxtəlif adda əsər başlıqları yazılmış, çərçivələrlə bəzədilmiş zalda öz yerlərini tutduqdan sonra gecənin aparıcıları səhnəyə daxil olur.

**I aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar. Bu il dahi fransız yazıçısı Jül Vernin 190 illiyidir. Bu münasibətlə sizləri xoş gördük.

Jül Vern varlı bir vəkil ailəsində anadan olmuşdur. O, 12 yaşında ikən bir gəmiyə minib evdən qaçmağa cəhd etmiş, lakin atası buna mane olmuşdur. Bundan sonra o, yalnız xəyal dünyasına səyahət edəcəyinə ailəsinə söz vermişdir. Jül Vern dəniz və macəraya olan sevgisini qardaşı Paulla da paylaşmışdı və Paul sonunda bir dəniz mühəndisi olmuşdur. Yazıçı internat məktəbi dövründə qısa hekayələr və şeirlər yazmağa başlamış, sonra isə o, 1846-cı ildə atasının işini davam etdirə bilmək üçün hüquq ixtisasını oxumağa Parisə getmişdi. Jül Vern hüquqda oxuduğu illər ərzində ədəbiyyata olan həvəsinin daha böyük olduğunun fərqinə varmışdır. O, yazıçılığa musiqiçi Jean Louis Aristide Hiqnard ilə birlikdə teatr oyunları yazaraq başlamışdı. İlk teatr əsəri 12 iyun, 1850-ci ildə səhnəyə qoyulmuşdu. Daha sonralar komediyalar, operettalar yazmış, yazıçının qısa hekayələri o vaxt Parisdə çıxan "Musee des familles" adlı jurnalda nəşr olunmuşdur. Amerikalı yazıçı Edqar Allan Poenin əsərlərini oxuduqdan sonra onun böyük bir pərəstişkarına çevrilmişdir. Bundan başqa dünyanı gəzmiş olan Fransız

səyyahı Jak Araqo ilə dost olmuşdur. Bu dostluq ona Parisdən daha geniş və dünya haqqında yazılar yazması üçün ilham vermişdir.

**II aparıcı:** Jül Vern ədəbiyyatda elmi-fantastika janrının ən görkəmli nümayəndələrindən biridir. Ona dünya şöhrəti gətirmiş əsərlərindən "Yerin mərkəzinə səyahət", (1864), "Kapitan Qrantın uşaqları" (1867), "20000 lyö su altında" (1870), "80 gün dünya ətrafında" (1873) misal göstərmək olar. Kosmik və sualtı gəmilərin hələ ixtira olunmadığı bir dövrdə əsərlərində bir qayda olaraq kosmosa uçuş, Yerin dərinliklərinə səyahət və bu səpkili macəraları qələmə almışdır. Elə buna görə də Ayın yerdən görünməyən hissəsindəki kraterlərdən birinə onun adı verilmişdir. Bu krater Arzular dənizinin yanında yerləşir.

**I aparıcı:** Jül Vern ümumilikdə 66 romanın ( bunlardan üçü – "Keşiş" (1991), "Robinzon dayı" (1991) və əfsanəvi "Paris XX əsrdə" (1994) ölümündən sonra nəşr edilmişdir), 20-dən artıq povest və hekayənin, 30-dan artıq pyes bir neçə elmi və sənədli işin müəllifidir.

Jül Vern özünün "Sen-Mişel I", "Sen Mişel II" və "Sen-Mişel III" gəmilərində səyahətlərə çıxmış, 1859-cu ildə İngiltərə və Şotlandiyaya, 1861-ci ildə Skandinaviyaya səfər etmişdir. 1878-ci ildə "Sen-Mişel III" gəmisi ilə Aralıq dənizi boyunca böyük səyahətə çıxmış, Lissabon, Cəbəllütariq və Əlcəzairdə olmuşdur. 1879-cu ildə həmin gəmi ilə yenidən İngiltərə və Şotlandiyada olmuşdur. 1881-ci ildə Niderland, Almaniya və Danimarkaya səfər etmişdir. 1884-cü ildə son böyük səyahətinə çıxmış, "Sen-Mişel III" gəmisi ilə Əlcəzairdə, Malta, İtaliya və digər Aralıq dənizi ölkələrində olmuşdur. Bu səfərlərin bir çoxu sonradan onun bir sıra məşhur əsərlərinin süjet xəttini təşkil etmişdir: "Üzən şəhər" (1870), "Qara Hindistan" (1877), "Yaşıl şüa" (1882), "Lotereya bileti" (1886) və s.

**II aparıcı:** Jül Vern YUNESKO-nun Index Translationum adlı bütün dövrlərin ən çox tərcümə edilmiş müəllifləri siyahısında ikinci yerdə qərarlaşmışdır. Bir çox əsərlərinin motivləri əsasında filmlər çəkilmişdir. Jül Vern, Hüqo Vernbak və Herbert Uellslə birgə elmi-fantastika janrının atası sayılır.

1892-ci ildə yazıçı Fəxri legion ordeninə layiq görülmüşdür. Ömrünün sonlarına yaxın kor olsa da, yaradıcılığını davam etdirmişdi.

O, 1905-ci il martın 24-də Amiens şəhərində şəkər xəstəliyindən vəfat etmiş və evinin yaxınlığında dəfn edilmişdir. Özündən sonra müxtəlif bilik sahələrini əhatə edən 20 mindən çox dəftərdən ibarət kartoteka qoymuşdur. Jül Vernin məzarı üzərində “Ölümsüzlüyə və əbədi gəncliyə doğru” sözləri yazılmış abidə ucaldılmışdır.

## Ədəbiyyat siyahısı

### *Əsərləri kitablarda*

### *Latın əlifbası ilə*


Arxipelaq alovlanır. Klodius Bombarnak. - Təkrar nəşr, 1989-cu il nəşri əsasında. - Bakı : Şərq-Qərb, 2006. - 416 s. ; 22 sm. - (Dünya Ədəbiyyatı)

İyirmi min lyö su altı ilə : roman. - Bakı : Altun Kitab, 2013. - 128 s. - (Məktəblinin kitabxanası. Dünya ədəbiyyatından seçmələr)

Kapitan Nemonun macəraları. - Bakı : OKA Ofset, 2011. - 100 s.

Kapitan Qrantın uşaqları. - Bakı : Altun Kitab, 2013. - 350 s.

On beş yaşlı kapitan : roman. - Bakı : Altun Kitab, 2013. - 128 s. - (Məktəblinin kitabxanası. Dünya ədəbiyatından seçmələr)

Seçilmiş əsərləri : Roman. - Təkrar nəşr, 2006-cı il nəşrləri əsasında. - Bakı : Şərq-Qərb, 2009. - 592 s. - (Dünya Ədəbiyyatı Klassikləri)

Sirli ada. - Bakı : Altun Kitab, 2013. - 128 s. - (Məktəblinin kitabxanası. Dünya ədəbiyyatından seçmələr)


### *Kiril əlifbası ilə*


80000 kilometr su altı ilə. - V nəşrinə əsasən. - Bakı : Uşaqgəncnəşr, 1948. - 483 s.

### *Elektron resurslar*

İyirmi min lye su altında [Elektron resurs]; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Electronik mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM)

### *Haqqında kitablarda*

Əsgərli F. F. Dünya uşaq ədəbiyyatı : Dərs vəsaiti. - [et al.]. - Bakı : ADPU, 2012. - 358 s.

### *Əsərləri mətbuatda*

Lileyeva İ. Elm və zəka tərənnümçüsü: Jül Vernin anadan olmasının 150 illiyi münasibətilə // Azərbaycan gəncləri. - 1978. - 7 fevral.

Jül Vern (1828-1905) // Savalan. - 2013. - 16-22 iyul. - № 50/51. - S. 2.

Jül Vern : frasız yazıçısı // Savalan. - 2009. - 17 aprel. - S. 2.

Qismət A. Gələcəyi göstərən 25 kitab // Ədəbiyyat qəzeti. - 2017. - 11 noyabr. - № 40. - S. 26.

# Elm və zəka tərənnümçüsü Jül Vern

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 11
Çapa imzalanmışdır:15.01.2018
Tirajı:100
Pulsuz